BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2009

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA KƏND İCMASI

T.Q.ƏHMƏDOVA
*Bakı Dövlət Universiteti*

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda kənd icması əhali arasında mövcud olan iqtisadi, hüquqi və məişət münasibətlərini nizama salan birlik idi. İcma sakinlər arasında torpaq bölgüsünü həyata keçirir, ictimai mükəlləfiyyətlərin yerinə yetirilməsində fəal iştirak edir, kənd sakinlərindən vergilərin toplanmasını təmin edirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda əsasən istifadə olunan torpaq mülkiyyəti formalarından biri də icma torpaq mülkiyyəti olmuşdur. Kəndlilərin istifadəsində olan torpaqlar hüquqi cəhətdən dövlət mülkiyyəti sayılsa da, kəndlilər ondan mülkiyyətçi kimi deyil, torpaq istifadəçiləri kimi istifadə edirdilər [9,74]. Faktiki şəkildə Azərbaycanın dövlət kəndlilərinin düşüncəsinə görə onların istifadə etdikləri torpaqlar ictimai torpaqlar olub camaata məxsus idi [9,74]. İcma üzvləri ondan bərabər hüquqlarla, lakin icarəçi kimi istifadə edirdilər [7,74]. Bütün hasara alınmamış yerlər icma mülkiyyətində idi. Bura başlıca təsərrüfat yerləri – tarlalar, biçənəklər, dağətəyi zolaqda yerləşən meşələr, otlaqlar, meşə ərazisində boş yerlər daxil idi [4,33]. İcmanın istifadəsində olan torpaqların bölüşdürülməsi qaydası yox idi [9, 74]. Torpaqlar bəzi yerlərdə vaxtaşırı, bəzi yerlərdə isə uzunmüddətli bölünürdü və ya ümumiyyətlə heç bölünmürdü. İcma ayrı-ayrı torpaq sahələrinin təsərrüfat başçıları tərəfindən istifadə üsullarına və torpağın ölçülərinə nəzarət edirdi, həm də ailə başçılarının vergi ödəmə qabiliyyətinə müvafiq olaraq mükəlləfiyyətlər təyin edirdi [6, 260]. Elə torpaqlar var idi ki, onlar ümumiyyətlə heç bölünmürdü. Belə torpaqlara həyətyanı torpaqlar, bağlar, bostanlar və meşə ərazisinin tənzimlənməsi nəticəsində yaranan torpaqlar, eləcə də çəltik səpilmiş, suvarılmış sahələr aid idi [6, 261]. Bu torpaqlar təsərrüfat başçılarının daimi istifadəsində idi. Əsasən əkin torpaqları bölünürdü. Örüş və otlaqlardan istifadə edərkən kəndlilər bir-birini xəbərdar edirdilər. Əkin torpaqları bölüşdürülərkən təsərrüfat başçısının vergi ödəmə qabiliyyəti və ailənin iqtisadi gücü nəzərə alınırdı. Bölünmüş torpaqların paylanması icmadan seçilən ağsaqqallara həvalə edilirdi.

İrəvan quberniyası Naxçıvan qəzasının qərb hissəsində həyətyanı və bağ yerləri və həyətyanı torpaqlar bölünmürdü və hər bir ailənin irsi istifadəsində idi [10, 546]. Əkin və biçənəklər təsərrüfat başçıları arasında bölünürdü, otlaqlar isə hər bir kəndin ümumi istifadəsində idi [10, 546].

XIX əsrin sonunda Naxçıvan qəzasının qərb hissəsində yerləşən kəndlərdə torpaq bölgüsü zamanı kəndlilər arasından inanılmış şəxslər – vəkillər seçilirdi. Onlar əvvəlcə müxtəlif təsərrüfat yerləri üzrə bütün torpaqları müəyyən edir və onları iplə

ölçürdülər. Pay torpaqlarının sahəsi, ya hər iki cinsdən olanların, ya da kişilərin sayına görə bölünürdü və bu üsulla hər bir nəfərə düşən torpaq sahəsi müəyyənləşdirilirdi. Sonra təsərrüfat başçılarının siyahısı tərtib olunurdu. Siyahıda hər bir təsərrüfat başçısının ailə üzvlərinin sayına görə düşəcək torpaq sahəsi müəyyən edilirdi. Vəkillər ümumi torpaq sahəsindən bağ və ağaclığın sahəsini çıxırdılar. Bu yolla onlar hər bir təsərrüfat başçısına nə qədər əkin sahəsi düşdüyünü müəyyənləşdirirdilər [10,547].

İrəvan quberniyasının Aleksandropol qəzasının Alagöz Məzrə kəndində əkin və biçin torpaqları kişi cinsindən olanların sayına görə bölünürdü. Bu qəzanın azərbaycanlılar yaşayan Cəhri kəndində isə torpaq batman çərək üsulu ilə bölünürdü. Bu bölgü üsuluna görə bütün əkin torpaqları səkkiz bərabər hissəyə bölünürdü, bu hissələr hər bölgüdə kənd evlərinin sayına bölünürdü, sonra isə hər bir ailə başçısına ailədəki vergi ödəmə qabiliyyəti olan şəxslərin sayına görə torpaq ayrılırdı (çərək) [10,548].

Torpağın düzgün bölgüsü icmanın əsas göstəricisi idi. Torpağın düzgün bölünməsində əsas məqsəd onun təsərrüfat başçıları arasında bərabər bölüşdürülməsi, eləcə də, evbaşı pay torpağının ölçüsünə uyğun olaraq ayrı-ayrı təsərrüfat başçılarının vergi ödəmə qabiliyyətini müəyyənləşdirmək idi. Bölünəcək torpaqlar az və ya çox sayda sahələrə (çərəklərə) bölünür və ailə üzvlərinin sayına görə paylanırdı. Torpaqlar bölündükdən sonra ailələrdən birində işçi qüvvəsi artardısa, kəndlilər ümumi bölgü başlayana qədər evbaşı torpaq payını xüsusi olaraq bölürdülər. Pay torpağının artması ilə vergi ödənişinin həcmi də artırdı [7, 664].

Kəndlilərin şəxsi istifadəsindən olan torpaqlar bölünməsə də, pay torpaqlarının bölgüsündə onlar hesaba alınırdı. Şərurda torpaqların vaxtaşırı bölünməsi onunla izah edilirdi ki, əhalinin əsas yaşayış mənbəyi olan taplaçılıq torpağın daha düzgün bölünməsini tələb edirdi [7,664].

İrəvan quberniyası Şərur-Dərələyəz qəzasının qərb hissəsində torpaqlar bölüşdürülərkən onun məhsuldarlığı, yerləşdiyi ərazi və becərilməsi üçün nə qədər əmək sərf ediləcəyi nəzərə alınırdı, sonra hər bir sahə, öz növbəsində, hissələrə (çərəklərə) bölünür və bütün evlər arasında paylaşdırılırdı, belə ki, hər bir ev bütün sahələrdə torpaq payı alırdı [7,65]. Bu ərazi üçün icmalıqla torpaqdan istifadə edilməsinin xüsusiyyətləri, demək olar ki, bütün Azərbaycana xas idi. İcmanın bütün təsərrüfat başçıları, o cümlədən dul qadınlar, bəzi icmalardan yetimlər, digərlərində uşaqsız – ailə qurana qədər pay torpağının bütün gəlirlərindən faydalana bilərdilər. Dövlət vergiləri və ictimai mükəlləfiyyətlər icma üzvləri arasında torpaq payı ölçülərinə uyğun paylanırdı. Torpaq bölgüsünə və vergilərin paylaşdırılması kimi icmaya aid olan məsələlər icmanın bütün üzvləri – camaat və ya icma tərəfindən seçilmiş şəxslər (vəkillər) tərəfindən həll edilirdi.

Kənd icmasının fəaliyyətini idarə edən seçkili orqanlar mövcud idi. İcmaya aid məsələlərlə icma yığıncağı tərəfindən seçilmiş şəxslər məşğıl olurdular. Belə şəxslər kəndxuda və kənd məhkəmələri idi.

Kənd icmalarının fəaliyyətini əks etdirən xüsusi qeyd dəftəri olurdu. Qeyd dəftərində icma üzvləri arasında bağlanan 300 manatdan çox olmayan müxtəlif razılaşmalar, müqavilələr və vəsiyyət olunan əmlakın dəyərinin 100 manatdan çox olmaması şərtilə tərtib edilən dini vəsiyyətnamələr qeyd olunurdu. Qeyd dəftərində öhdəliklər və dini vəsiyyətnamələr yazılmamışdan əvvəl müqavilə bağlanmasında iştirak edən tərəflər 10 qəpik həcmində rüsum ödəyirdilər [1, 1].

Kəndxuda seçiləcək şəxslər məhkəmə qarşısında durmamalı, özünü yaxşı aparmalı, qanunla nəzərdə tutulmuş yaş həddi və tərpənməz əmlakı olmalı idi. O, öz iş yerini xəbərsiz tərk edə bilməzdi [2, 13].

Kənd icmasının yığıncağında kəndxudalar üç il müddətinə seçilməli idi. Onunla bərabər namizədlər və kənd hakimləri də seçilirdilər. Seçki gizli səsvermə ilə kecirilirdi. Kəndxuda seçildikdən sonra and içir və quranı öpürdü. Kənd icması bir neçə kənddən ibarət olanda hakimlər və namizədlər hər kənddən bir nəfər seçilirdi [8, 58].

Kəndxudalar icmalarda baş vermiş cinayət işləri haqqında Bakı qubernatoruna məlumat verməli idilər. Lakin bəzən kəndxudalar cinayət tərkibli hadisələr haqqında məlumat vermir, özü məsələni adi hüquq norması ilə həll etməyə çalışırdılar. Öz işinə laqeyid yanaşan kəndxudaları işdən azad edirdilər [3, 26] .

Bəzən kəndxudaları cinayət törətdiyi üçün tutduqları vəzifədən azad edirdilər. Elə icmalar var idi ki, kəndxuda seçmək hüququndan məhrum edilirdi. O zaman kəndə dövlət kəndxudası təyin olunurdu. İcma ona məvacib verməli və icmanın hesabına yedirtməli idi [4, 73] .

XIX əsrin ikinci yarısında kənd idarəsi icmanın bütün üzvlərinə, təsərrüfat başçılarına kənd yığıncaqlarında iştirak etmək hüququ verilmişdi. Əvvəllər isə, olan yığıncaqlarda kəndin ehtiyaclarını yalnız nüfuzlu və imkanlı şəxslər müzakirə edirdilər.

Nüfuzlu və varlı kəndlilərdən seçilən kəndxudalar və onların köməkçiləri bir çox kəndlərdə heç bir məvacib almırdı. Yalnız Şuşa qəzasının Ovşar və Qaradolaq köçəri kəndlərində iki dövlət kəndxudası mükafatlandırılmışdı, qəzanın digər kəndlərində isə kənxudalar ya heç bir məvacib almırdılar, ya da əvəzində kəndlilərin müxtəlif xidmətlərindən istifadə edirdilər [6, 323]. Lakin icma tərəfindən əmək haqqı ödənilən kəndxudalar da var idi. Belə ki, Bakı quberniyası Cavad qəzasının kəndlərində inzibati qayda ilə icmaya təyin olunan kəndxudaya əmək haqqı ödənilirdi, icmanın vəzifəli şəxslərinin üzərinə düşən dövlət vergiləri isə bölgü üzrə bütün icma tərəfindən ödənilirdi [5, 323].

Şuşa qəzasının köçəri kəndlərində kəndxudalar hətta ən yoxsul köçərilərin vergilərini ödəyirdi. Belə ki, kəndxudanın xidməti digər gəlirlərlə mükafatlandırılırdı. Qəzanın Ağcabədi, Pirzadlı, Xəlfərəddinli və Eyvazlı kəndlərində hər bir ailə başçısı taxıl yığılması dövründə kəndxudaya bir cüt işçi öküz verirdi, digər kəndlərdə isə kəndlilər kəndxudanın xeyrinə bir və ya iki iş günü işləyirdilər [6, 320].

İcma tərəfindən seçki yolu ilə kəndlilər arasından cuvar və mirab seçilirdi. Mirablar əvvəlki adət-ənənə əsasında mahal mərkəzundə toplanmış yığıncaqlarda, bir nəfər yerli polis idarəsindən olan şəxsin iştirakı ilə, gizli səsvermə yolu ilə seçilirdilər. Mirabın suyu düzgün bölüşdürüb-bölüşdürülməməsinə, ondan şikayət olub-olmamasına baxmayaraq qanun polisə mirabın işinə qarışmağı qəti surətdə qadağan edirdi [12, 32]. Suvarma təsərrüfatına rəhbərlik edən vəzifəli şəxslərdən olan cuvarın vəzifəsi kəndlər arasında suyun bölüşdürülməsini asanlaşdırmaq üçün baş arxın bəndinin yanında mirabın möhürü ilə müəyyən edilmiş suayıran işarələri mühafizə etmək idi. Cuvarlar kəndlilər arasında hər hansı bir anlaşılmazlıq olardısa, həm də hakim rolunu oynayırdılar. Lakin Azərbaycanın elə əraziləri var idi ki, orada mirab vəzifəsi yox idi. Yelizavetpol quberniyası Cəbrayıl qəzasında mirab vəzifəsi yox idi. Şuşa qəzasında isə cəmi bir mirab var idi. O yalnız Qarqarçay hövzəsinə başçılıq edirdi və qəzanın digər çaylarından bölünən suya heç bir aidiyyatı yox idi [12, 31].

Su bölənin əməyi suvarılmış torpaqların sahibləri tərəfindən məhsulla ödənilirdi. Qazax qəzasında cuvarın haqqı bir icmadan – ailədən, digərindən cütdən,

üçüncüdən isə məhsuldan ödənilirdi. Qazax qəzası Quşçu icması cuvarın haqqı olaraq iki çanaq buğda, Göyçəli icması beş çanaq - yarı buğda, yarı arpa ilə ödəyirdi [8, 87] .

Şərurun bəzi kəndlərində isə cuvarın əməyi əhali tərəfindən ya pulla, ya da suvarılmış torpaqlarda əkilən məhsulun bir hissəsi ilə mükafatlandırılırdı [11, 115].

İcma tərəfindən meşə gözətçisi seçilirdi. O öz xidmətinə görə nə dövlət, nə də icmadan heç bir haqq almırdı [5, 276]. İcma tərəfindən seçilən meşə gözətçisinin məvaciblərinin müəyyənləşdirilməsi icma və onu icarəyə götürən şəxsin qarşılıqlı razılaşmasından asılı idi. Bəzi ərazilərdən bu ödəmə ildə 2 publ 25 qəpikdən 50 rubladək olurdu. Bir çox yerlərdə gözətçinin həm də atı olmalı idi. Cüzi maaşa razılaşaraq meşəbəyi qarşısında mühüm məsuliyyət götürən meşə gözətçisının əlavə gəlir mənbələri var idi.

Qazax qəzasının 66 min desyatindən 85 min desyatinə qədər əraziyə malik olan meşə zolağında meşəbəyinin sərəncamında atlı qoruqçular olurdu və onlar dövlətdən ildə 150 manat alırdılar [8,120]. Onlar gecə və gündüz səfərdə olur və onlara tabe olan meşə gözətçilərinin fəaliyyətini yoxlayırdılar. Meşə gözətçiləri icma tərəfindən öz hesabına qoruqçu tuturdu. Qazax qəzasının demək olar ki, bütün kəndlərində qoruqçu var idi.

Hər bir icma vergilərdən başqa ictimai mükəlləfiyyətlər də ödəyirdi. İcma üzvləri kənd idarəsinin kəndxuda, mirzə və kuryerlərin, məktəb, zemstvo atlılarının, cuvar, molla, gecə qarovulçularının, tarla gözətçilərinin və bərbərlərin saxlanması üçün pul ödəyirdi [6,319]. Təsadüfi ictimai xərclərə isə yolların düzəldilməsi, arabaların atla təchiz edilməsi, mal oğurluğunun açılmaması üçün cərimələr alınması aid edilirdi [6, 319].

Beləliklə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan kəndində icma torpaq mülkiyyəti parçalanma prosesi keçirirdi.

## ƏDƏBİYYAT


1. ARDTA 591-ci fond, siyahı 1, iş 29 vərəqə 1.
2. Orada 44-cü fond, siyahı 1 iş 27 vərəqə 13.
3. Orada, iş 32, vərəqə 26.
4. Orada iş 25, vərəqə 13.
5. Алифин С.К. Экономический быт государственных крестьян Джеватского уезда Бакинской губернии. МИЭБГКЗК, т.,Тифлис, 1886.
6. Деконски А.Г. Экономический быт государственных крестьян в Шушинском и Джебраильском уездах Елизаветпольской губернии. МИЭБГКЗК. т. IV часть 1 Тифлис: 1886.
7. Деконски А.Г. Экономический быт государственных крестьян в западной части Шарура-Даралагезского уезда, Эриванской губернии. МИЭБГКЗК., т.1.
8. Ерицов А.Д. Экономический быт государственных крестьян Казах-ского уезда, Елизаветпольской губернии. МИЭБГКЗК т.2, часть 2.
9. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв. Баку, 1964
10. Никифоров Н.К. Экономический быт государственных крестьян в западной части Нахичеванского уезда, Эриванской губернии. МИЭБГКЗК., т.1, Т 1886.
11. Парвицки А.В. Экономический быт государственных крестьян северо- западной части Шарура и восточной части Даралагеза, Шарура-Даралагезского уезда, Эриванской губернии МИЭБГКЗК. т. IV. Т.1886.
12. Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı., 1980.

## СЕЛЬСКАЯ ОБЩИНА В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ X1X - В НАЧАЛЕ XX ВЕКА

**Т.Г.АХМЕДОВА**

**РЕЗЮМЕ**

В статье рассматривается структурные особенности сельской общины, роль данного социального института в вопросах регулировании юридических, экономических и бытовых отношений, передела земельных угодий и связанные ими обычаи и обряды.

## VILLAGE COMMUNITY IN AZERBAIJAN AT THE END OF XIX CENTURY – BEGINNING OF XX CENTURY

**T.Q.AKHMEDOVA**

**SUMMARY**

The article is devoted to one of the little studied problems of the Azerbaijan ethnography - to a rural community. It is marked that as the social establishment the basic function of a rural community consist in regulation of legal and household relations. The questions connected with the allotment of the ground areas by the separate persons – аксакалами and other authorized persons elected by the specified social structure - djamaatom and measurement of the ground areas carried out by national ways as черек (a cord), batman-черек i verevkoy(by rope) have been analyzed. In the article, it is also mentioned such questions as ways of use of the common ground areas and factors promoting on processes of the division of arable land.